*AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu*
*Azərbaycan ədəbiyyatşünaslığı, 2024, № 2* *ISSN: 2663-4406*
*Səhifə: 120-129* *E-ISSN: 2709-2699*
*https://doi.org/10.59849/2663-4406.2024.2.120*

***Azərbaycan ədəbiyyatı tarixçiliyi***

# Müstəqillik dövrü Azərbaycan ədəbi-nəzəri fikrində Azərbaycan sovet dövrü ədəbiyyatının 1920-1930-cu illər mərhələsinin dövrləşdirilməsinə yeni konseptual elmi baxışlar

**Yədulla Dadaşlı**
Filologiya üzrə fəlsəfə foktoru, dosent
Azərbaycan Dövlət Pedaqoji Universitetinin Cəlilabad filialı
E-mail:dadashliyadulla@mail.ru

**Annotasiya.** Müstəqillik dövrü Azərbaycan ədəbiyyatşünaslığının qarşısında duran aktual məsələlərdən biri də ədəbiyyat tariximizin dövrləşdirilməsi ilə bağlıdır. Ədəbiyyat tariximizin yaradılmasında dövrləşdirilmənin düzgün aparılması son dərəcə önəmlidir. Müstəqillik dövründə akademik İ.Həbibbəyli, B.Nəbiyev, N.Cəfərov, prof. N.Qəhrəmanlı, T.Salamoğlu və başqaları Azərbaycan ədəbiyyatı tarixinin dövrləşdirilməsi ilə bağlı tədqiqatlar aparmışlar. Məqalədə adıçəkilən alimlərin ədəbiyyat tariximizin dövrləşdirilməsi ilə bağlı apardıqları tədqiqatlar araşdırılır və elmi baxımdan dəyərləndirilir. Məqalədə ədəbi-nəzəri fikrimizin 1920-30-cu illər mərhələsinin dövrləşdirmə bölgüsü aparılır. Birinci mərhələdə millilik və türkçülük təmayüllərinin, 2-ci mərhələdə proletkultçuluğun, 3-cü mərhələdə sovet ədəbiyyatı uğrunda mübarizənin aparıcı mövqedə dayandığı əsaslandırılır.
**Açar sözlər:** ədəbiyyat tarixi, dövrləşdirmə, dövrləşdirmə variantları və nəzəriyyələri, dövrləşdirməyə aid tədqiqatlar

**Məqalə tarixçəsi:** göndərilib – 08.10.2024; qəbul edilib – 16.10.2024

# New conceptual scientific views on periodization of 1920s-1930s period of Azerbaijani literature of the Soviet period in Azerbaijani literary and theoretical thought of independence period

**Yedulla Dadashli**
Doctor of Philosophy in Philology, Associate Professor
Azerbaijan State Pedagogical University, Jalilabad branch
E-mail: dadashliyadulla@mail.ru

**Abstract.** The period of independence one of the urgent issues facing Azerbaijani literary studies is related to periodization of our literary history. Correct periodization is extremely important in the creation of our literary history. During the period of independence, Academician I.Habibbeyli, B.Nabiyev, N.Jafarov, prof. N.Gahramanli, T.Salamoglu and others conducted research on periodization of the history of Azerbaijani literature. The periodization of the 1920-30s phase of our

literary-theoretical thought is carried out in the article. It justifies that the tendencies of nationalism and Turkism in the first stage, proletarianism in the 2nd stage, and the struggle for Soviet literature in the 3rd stage are in the leading position.
**Keywords:** literary history, periodization, options and theories of periodization, studies related to periodization

**Article history:** received – 08.10.2024; accepted − 16.10.2024

## Giriş / *Introduction*

İyirminci yüzilin sonuncu onilliyində keçmiş sovet siyasi rejiminin dağılması nəticəsində imperiya tərkibinə zorla qatılmış digər xalqlar kimi, Azərbaycan xalqı da öz milli müstəqilliyinə yenidən qovuşur. Azərbaycanda sosial-siyasi və ədəbi-bədii fikrin milli müstəqillik müstəvisində irəliyə doğru inkişafı üçün geniş üfüqlər açılır. Azərbaycan ədəbiyyatşünaslığı və ədəbi tənqidi sahəsində sovet ideologiyasına və sosialist realizmi yaradıcılıq metoduna tamamilə son qoyulur, ədəbi-tənqidi fikir milli müstəqillik işığında öz inkişafının yeni mərhələsinə qədəm qoyur. Milli müstəqillik Azərbaycan ədəbiyyatı tarixinin müstəqillik dövrünün elmi qanunauyğunluqları çərçivəsində yaradılması zərurətini meydana çıxarır. Azərbaycan ədəbiyyatı tarixinin milli məfkurə işığında elmi əsaslarla yaradılmasını ədəbi fikrin dövrləşdirmə konsepsiyasının işlənib hazırlanması, dövrləşdirmə prinsiplərinin sovet dövründən tamamilə fərqli aspektdə müəyyənləşdirilməsi şərtləndirir. Ədəbi fikrin dövrləşdirilməsi problemi isə "ədəbiyyat tarixi"ni yaratmaq qədər çətin və mürəkkəb bir prosesdir. Professor Şirindil Alışanlı "Müasir humanitar təfəkkür və Azərbaycan ədəbiyyatşünaslığı" (2011) monoqrafiyasında dövrləşdirilmə problemi ilə bağlı tamamilə haqlı olaraq yazır: "Bu gün istər xarici ədəbiyyatşünaslıqda, istərsə də Azərbaycanda ədəbi fikrin dövrləşdirilməsinin ümumi və fərdi cəhətləri, onların sərhədləri müəyyənləşməmiş qalır. Tarixi dövrləşdirilmə dünya humanitar fikrinin gündəmindən düşmür. Dövrləşdirilmə ilə bağlı humanitar fikirdə mövcud olan nəzəriyyələrin mahiyyətinə, onların yanlış cəhətlərinə nəzarət yetirmək zəruridir" [1, s.116]. Alim sovet dövrü Azərbaycan ədəbi və estetik fikrinin müstəqillik dövrünün elmi və estetik tələbləri baxımından yenidən dəyərləndirilməsinin zəruri olduğunu nəzərə çatdırır: "Ədəbi-tarixi inkişafın öz daxili mərhələlərinin də dövrləşdirilməsi olduqca aktual mövzu olaraq qalır. Xüsusən XX əsr ədəbiyyatı, o cümlədən Sovet dövrünün daxili inkişaf mərhələlərini, onların ümumi poetik dəyərlərini, poetik sistem xəttini müəyyənləşdirmədən XX əsr kimi mürəkkəb ədəbi epoxanın milli, regional və bəşəri qütblərini müəyyən etməkdə metodoloji meyarlar, postulatlar yaranmayacaq" [1, s.120]. Şübhəsiz ki, bu dəyərli mülahizələr XX əsrin 20-30-cu illərinin mərhələ təsnifatının düzgün müəyyənləşdirilməsini də çevrələyir.

## Əsas hissə / *Main Part*

Bu da bir həqiqətdir ki, Azərbaycan ədəbiyyatı tarixinin sovet dövrü mərhələsinin dövrləşdirilməsi konsepsiyasının ədəbi-bədii fikrin immanent qanunları əsasında hazırlanması ədəbi şəxsiyyətlərin fərdi düşüncələrindən daha çox, estetik və elmi tələblər baxımından aparılmalıdır. Hələ XX əsrin 90-cı illərində bir sıra tədqiqatçı alimlər ədəbi fikrin dövrləşdirilməsi ilə bağlı araşdırmalar aparmış, müəyyən elmi-estetik nəzəriyyələr irəli sürmüşlər. Professor Nazif Qəhrəmanlının verdiyi məlumata görə, 1993-cü ilin dekabr ayında AMEA Nizami adına Ədəbiyyat İnstitutunda keçirilən konfransda Azərbaycan ədəbiyyatının dövrləşdirilməsi ilə bağlı bəzi konsepsiyalar diqqətə çatdırılmışdır [6, s.29]. Həsən Quliyev Azərbaycan ədəbiyyatı tarixini beş məlum ictimai-iqtisadi formasiya əsasında dövrləşdirməyi təklif etmişdir. Professor Zaman Əsgərli Azərbaycan ədəbiyyatı tarixini üç dövrə-qədim, orta əsrlər və yeni dövrə bölür, bizim eradan əvvəlki zamanlardan başlayaraq isla-

ma qədərki əsrləri birinci dövrə, VIII-XVIII yüzilləri ikinci dövrə, XVIII-XIX yüzillikləri isə üçüncü dövrə aid edir. Professor Elməddin Əlibəyzadə Azərbaycan ədəbiyyatının ilk qaynağı kimi dörd başlanğıc (“Avesta”, “Kitabi-Dədə Qorqud”, qədim türk abidələri və Nizami) fikrinə əsaslanırdı. Professor Nazif Qəhrəmanlı isə bu fikirdə idi ki, “Azərbaycan ədəbiyyatı tarixi üzrə” dövrləşdirməni mövcud ədəbi-tarixi təcrübə əsasında, ifratlara yol vermədən aparmaq lazımdır [6, s.29]. Müasirlik baxımından yanaşdıqda söylənilən mülahizələrin, irəli sürülən təkliflərin heç biri milli ədəbiyyat tariximizin dövrləşdirilməsi üçün tutarlı deyil, çünki ədəbiyyat tariximizin dövrləşdirilməsinin tam mənzərəsini yaratmaq imkanlarından məhrumdur. Odur ki, yeni dövrləşdirmə meyarlarının yaradılması zərurəti meydana çıxır. Professor Yaşar Qarayev XX yüzilin 90-cı illərində milli düşüncə müstəvisində Azərbaycan ədəbiyyatı tarixinin yaradılmasında dövrləşdirmə meyarlarının önəmli olduğunu xüsusi olaraq vurğulayır. Ədəbiyyat tariximizin dövrləşdirilməsi zamanı tarixi formasiya prinsipinə, tarixi-xronoloji meyarlara, dil və ərazi amilinə əsaslanmağın səmərəsiz olması qənaətinə gəlməkdə tamamilə haqlı görünür. Alimin mülahizəsinə görə: “Dövrləşdirmədə tarixi müddət vahidi məhz daxili qanunauyğunluğa, ədəbi prosesin bədii mahiyyəti və obyektiv tərəqqinin məntiqi ilə şərtlənən estetik meyara əsaslanmalıdır” [5, s.41]. Orta yüzilliklərdən Azərbaycan Demokratik Cümhuriyyətinin süqutuna qədərki bir dövrün mərhələ təsnifatını yığcam şəkildə araşdıran alim sovet dövrü Azərbaycan ədəbi fikrinin dövrləşdirilməsi meyarlarını da xatırladır. Sovetlər birliyi dönəmində Azərbaycan ədəbiyyatı tarixinin “partiya tarixlərindəki məlum cədvəllər üzrə “ədəbi onilliklərə” bölünərək öyrənilməsi üsulu”nun artıq özünü doğrultmadığını diqqətə çatdırır. Yaşar Qarayev Sovet dövrü Azərbaycan ədəbiyyatını iki mərhələyə – 1920-1950-ci illər və 1960-1990-ci illər mərhələlərinə ayırır. Birinci mərhələni “repressiya, ehkam, kult və qrafomanlıq ideologiyasının tam hakim olduğu klassik dövrün bədii ədəbiyyatı”, ikinci mərhələni isə “yeni ictimai əxlaqın və düşüncə tərzinin təşəkkül tapmağa başladığı və yetişib bərqərar olduğu müasir epoxanın bədii ədəbiyyatı” [5, s.46] adlandırır. Alim sözünə davam edərək yazır: “Bu mərhələlərdən birini, yaxud digərlərini tarixin arxivinə vermək yolu doğru deyil, hər ikisini olmuş, baş vermiş real keçmişimizin öz tarixi təzadları, faciəsi, səhvlər və uğurları ilə birlikdə, bədii idrakımızın və sosial əxlaqımızın dərsləri kimi öyrənmək yolu yeganə doğru yoldur” [6, s.46-47].

Tanınmış ədəbiyyatşünas alim Nazif Qəhrəmanlının Azərbaycan ədəbiyyatı tarixini dövrləşdirmə konsepsiyası da maraq doğurur. Onun dövrləşdirmədə əsas meyar kimi xronoloji prinsipə üstünlük verməsi elmi həqiqətin təzahürü kimi səslənir.

Ədəbi fikrin mərhələlərlə bölgüsünə gəlincə isə alim bir neçə variantı göstərir:

Variant 1. Azərbaycan ədəbiyyatı tarixi klassik (XIX əsrədək) və müasir (XIX-XX əsrlər) zaman ölçülərində öyrənilir.

Variant 2. Azərbaycan ədəbiyyatı dövlət müstəqilliyinədək (1918) və ondan sonra.

Variant 3. Azərbaycan ədəbiyyatı tarixi: a) ərəb, fars və digər dillərdə; b) türkdilli Azərbaycan ədəbiyyatı tarixi.

Variant 4. Azərbaycan ədəbiyyatı tarixi (şəxsiyyətlər üzrə).

Variant 5. Azərbaycan ədəbiyyatı tarixi ( mərhələlər üzrə).

Variant 6. Azərbaycan ədəbiyyatı tarixi (minilliklər üzrə).

Variant 7. Azərbaycan ədəbiyyatının nəzəri tarixi [6 , s.108-109].

“Hər variant bir ideyanın daşıyıcısıdır”, – deyən alim bu variantları ədəbi-tarixi və metodoloji baxımdan əsaslandırmaq təşəbbüsündə olmadığını da söyləyir. Azərbaycan ədəbiyyatı tarixini dövrləşdirmənin mükəmməl konsepsiyasını yaratmaq niyyətində olmadığını da bildirir. Yeni yaradılacaq dövrləşdirmə konsepsiyalarının qarşısına mühüm tələblər qoyaraq yazır ki, “...yeni konsepsiyalar əsasən şərtilikdən, populist meyillərdən uzaq olmalı, ədəbiyyat tariximizin tarixi-estetik məğzini əks etdirməlidir. Yeni hər hansı konsepsiya Azərbaycan tarixinin inkişaf dinamikasına əsaslanmalı, tarixi hadisələrə birtərəfli mövqeyi ilə deyil, ümumiləşdirici və dəyərləndirici postulatları ilə fərqlənməlidir. Yalnız bu halda konsepsiya müasir elmi fikir üçün səmərəli ola bilər” [6, s.111-112]. Bu

mülahizələrdən də göründüyü kimi, Nazif Qəhrəmanlı yeni dövrləşdirmə konsepsiyası hazırlanarkən "Azərbaycan tarixinin inkişaf dinamikasına" əsaslanmağı zəruri komponent kimi irəli sürməklə tarixi (xronoloji) prinsipin yetərli olması mövqeyindən çıxış edir. Lakin unutmamalıyıq ki, Azərbaycan tarixi və Azərbaycan ədəbiyyatı tarixinin inkişaf dinamikasında oxşarlıqların olmasına rəğmən, onların dövrləşdirilməsi meyarları arasında əsaslı fərqlər vardır. Başqa sözlə, xronoloji dinamikaya əsaslanıb Azərbaycan tarixinin dövrləşdirmə meyarlarını ədəbi fikrimizin dövrləşdirmə konsepsiyasına mexaniki olaraq tətbiq etmək olmaz. Ədəbiyyat tariximizin əsaslandırılmış elmi dövrləşdirmə meyarları yaradılmalı, bu meyarlar əsasında Azərbaycan ədəbiyyatının mükəmməl elmi tarixi yazılmalıdır.

Azərbaycan ədəbiyyatının dövrləşdirilmə problemi ilə akademik Bəkir Nəbiyevin və professor Şamil Salmanovun birgə yazdıqları "Əsrin ədəbiyyatı" məqaləsində də qarşılaşırıq. Öz ömrünü başa vurmuş, mürəkkəb, ziddiyyətli bir yaradıcılıq yolu keçmiş XX əsr Azərbaycan ədəbiyyatının tarixini yaratmaq probleminin müasir ədəbiyyatşünaslığın qarşısında dayandığını xüsusi vurğulayan müəlliflər XX əsr ədəbiyyatının inkişaf dinamikasını da xarakterizə etmişlər. Alimlər milli ədəbiyyat tariximizi "yeni mövqelərdən, milli müstəqillik təfəkkürü səviyyəsindən", "yeni milli və ümumbəşəri dəyərlər əsasında" yaratmağın zəruriliyini xüsusi olaraq diqqətə çatdırmışlar. Onlar iyirminci əsr ədəbiyyatımızı üç əsas mərhələyə ayırmışlar: "Əsrin əvvəli, 20-ci illərdən sonrakı sovet dövrü, 90-cı illər milli müstəqillik mərhələləri" [8, s.10]. Məqalə müəllifləri XX əsr Azərbaycan ədəbiyyatının mərhələ tipologiyasını onun tarixinə əsasən aparmış, bu mərhələ təsnifatını "ədəbi əsrin tarixinin ideya-nəzəri və metodoloji prinsipləri" hesab etmişlər. Bununla yanaşı, XX əsrin başlanğıc mərhələsinin, 70 illik bir dövrü çevrələyən Azərbaycan sovet ədəbiyyatı tarixinin yeni düşüncə müstəvisində işıqlandırmasına da böyük önəm vermişlər. Lakin mürəkkəb və ziddiyyətli sosial-siyasi və ədəbi-mədəni hadisələrlə zəngin olan bir epoxanın – XX yüzilliyin ədəbiyyatını **əsrin başlanğıcı, sovet dövrü və müstəqillik dövrü** mərhələlərinə ayırmaq konsepsiyası ilə razılaşmaq çətindir. Ədəbiyyatşünaslıq elminə çoxdan məlumdur ki, təkcə sovet dövrü Azərbaycan ədəbiyyatı bir sıra mərhələlərdən keçmişdir və bu mərhələlərin təsnifatını elmi əsaslarla aparmaq və sərhədlərini müəyyənləşdirmək hələ də öz həqiqi tədqiqatçısını gözləyir. Professor Şirindil Alışanlı XX yüzil Azərbaycan ədəbiyyatının dövrləşdirilməsi probleminə münasibət bildirərək yazır: "XX əsr Azərbaycan ədəbiyyatının **XX əsrin əvvəlləri, sovet dövrü və müstəqillik dövrü** mərhələlərinə ayrılması ictimai təfəkkürün mexaniki olaraq bədii fikrə tətbiqidir. Bu prinsip ciddi elmi meyarlardan məhrumdur. Belə tarixi bölgünü XX əsr ədəbi-mədəni hadisəsinin bir bütöv kimi iç mərhələləri kimi götürmək olar" [1, s.120-121].

Ş.Alışanlı onu da diqqətə çatdırır ki, sovet dövründə yaranan ədəbi irsin dövrləşdirilməsi zamanı "sosialist realizmi ədəbiyyatı" və "sovet dövründə yaranan ədəbiyyat" stereotipləri yaranmışdır. Alim çox doğru olaraq onu da vurğulayır ki, sovet dövrü Azərbaycan ədəbiyyatının mərhələ təsnifatını apararkən Sovet cəmiyyətində gedən ictimai-sosial prosesləri və ədəbiyyatın təkamül dinamikasını da nəzərə almaq lazımdır.

Azərbaycan ədəbiyyatı tarixinin dövrləşdirmə və mərhələ təsnifatı ilə bağlı elmi tədqiqatlar aparan müstəqillik dövrü Azərbaycan ədəbiyyatşünas və tədqiqatçıları sırasında akademik Nizami Cəfərovun dövrləşdirmə konsepsiyası və mərhələ təsnifatı ilə əlaqədar apardığı araşdırmalar ciddi maraq doğurur. Azərbaycan ədəbiyyatının mənşəyinin müəyyənləşdirilməsi ilə yanaşı, dövrləşdirilməsi məsələsi də alimi ciddi maraqlandırır.

Nizami Cəfərov çox yaxşı bildirir ki, Azərbaycan ədəbiyyatı tarixini elmi prinsiplər əsasında yaratmaq üçün "daha mükəmməl bir dövrləşdirmə verməyə ehtiyac duyulur" [8, s.7]. Professor Təyyar Salamoğlu "Nizami Cəfərov" məqaləsində alimin ədəbiyyatşünaslıq və tənqidçilik fəaliyyətini araşdırmış, doğru elmi dəyərini verərək yazmışdır: Prof. N.Cəfərov Azərbaycan ədəbiyyatının tarixinə dair aparılan (və bundan sonra aparılacaq) tədqiqatların elmi və metodoloji baxımdan səmərəliliyini şərtləndirən amillər içərisində "dövrləşdirmə" və mərhələ təsnifatının düzgün elmi prinsip-

lərlə aparılmasını ən vacib şərtlərdən biri sayır. Bu sahədə müəyyən işin görülməsinə rəğmən, “daha mükəmməl bir dövrləşdirməyə ehtiyac” duyulması qənaətinə gəlir” [9, s.320]. Professor Təyyar Salamoğlunun elmi mülahizələrindən də göründüyü kimi, Nizami Cəfərov milli ədəbiyyat tariximizin yaradılmasında üç əsas meyarı – ədəbi-estetik, etnik-kulturologiya və ictimai-siyasi prinsipləri əsas götürür. Ədəbi fikrimizin “dövrləşdirmə” və mərhələ təsnifatının aparılmasında göstərilən prinsiplərə əsaslanmağı məqbul sayır. Ədəbi fikir tariximizin yazıya alınması zamanı hansı ədəbi-estetik, etnik-kulturoloji və ictimai-siyasi proseslərin baş verdiyini nəzərə almağı, ədəbiyyat “texnologiyası”nın yaranmasına diqqət yetirməyi də məsləhət görür.

Alimə görə, Azərbaycan ədəbiyyatı tarixi yaradılarkən ədəbi-estetik, etnik-kulturoloji və ictimai-siyasi prinsiplərə əsaslanmalıdır. N.Cəfərov beş cilddə nəşr etdirdiyi “Seçilmiş əsərləri”nin ikinci cildinə (Bakı: “Elm”, 2007) yazdığı “Ön söz, yaxud Azərbaycan ədəbiyyatının tarixi”ndə V-XII əsrləri Azərbaycan ədəbiyyatının **qədim dövrü,** XIII-XVI əsrləri Azərbaycan ədəbiyyatının **orta_dövrü**, XVII əsrdən XX əsrin əvvəllərinə qədərki mərhələni Azərbaycan ədəbiyyatının **yeni dövrü,** XX əsrin əvvəllərindən sonrakı dövrü isə Azərbaycan ədəbiyyatı tarixinin **müasir dövrü** adlandırır. Çağdaş elmi və metodoloji meyarlarla yanaşdıqda göstərilən dövrləşdirmə konsepsiyası özünü doğruldur. N.Cəfərov birinci dövrü epos, ikinci dövrü isə “lirika” dövrü adlandırır, hər iki dövr, başqa sözlə, qədim dövr Azərbaycan ədəbiyyatı ilə orta dövr ədəbiyyatı arasında möhkəm bağlılıq, irs-varislik əlaqələrinin olması qənaətinə gəlir. Alimin elmi təfəkkürünə görə, qədim Azərbaycan ədəbiyyatı üç dildə – Azərbaycan türkcəsində, ərəb və fars dillərində yaradılsa da, “...Qətranın, Xaqaninin, Nizaminin işlətdiyi fars dili, şübhəsiz, türk təfəkkürünün məhsuludur. İkinci dövrdə də bu ənənə davam edir – hətta böyük Füzuli üç dildə yazır... Lakin etiraf etmək lazımdır ki, bu dövrdə yalnız Azərbaycan türkcəsində yaranmış ədəbiyyat əsl sənət faktıdır, farsca, ərəbcə yazılanlar isə o qədər ikinci, yaxud üçüncü dərəcəlidir ki, Azərbaycan ədəbiyyatı onlarsız da keçinə bilərdi “ [2, s.8]. N.Cəfərov doğru olaraq bu nəticəyə gəlir ki, “etnokulturoloji, ictimai-siyasi dəyişikliklərin” nəticəsində XVI əsrin sonu, XVII əsrin əvvəllərindən başlayaraq Azərbaycan ədəbiyyatı daha çox “azərbaycanlaşır”, başqa sözlə **intibah** hadisəsi baş verir. Nizami Cəfərov “XX əsr Azərbaycan ədəbiyyatı” məqaləsində adından da göründüyü kimi, yalnız XX əsr Azərbaycan ədəbiyyatı tarixinin mərhələ təsnifatını aparmağı qərarlaşdırır. XX əsr ədəbiyyatımızın aşağıdakı mərhələlərdən ibarət olduğunu diqqətə çatdırır:

1. XIX əsrin sonu, XX əsrin əvvəllərindən XX əsrin 30-cu illərinin ortalarına qədər;
2. 30-cu illərin ortalarından 50-ci illərin sonu, 60-cı illərin əvvəllərinə qədər;
3. 50-ci illərin sonu, 60-cı illərin əvvəllərindən 80-ci illərin sonu, 90-cı illərin əvvəllərindən sonra [2, s.143].

Alim birinci mərhələni Azərbaycan ədəbiyyatının “ən mürəkkəb, ən ziddiyyətli”, “tendensiya qarşılaşması, ideya döyüşləri” zaman vahidi kimi səciyyələndirir. Bu mərhələdə dramaturgiya və publisistikanın Cəlil Məmmədquluzadə, Əbdürrəhim bəy Haqverdiyev, Hüseyn Cavid, Üzeyir Hacıbəyov simasında öz inkişaf tarixini keçirdiyini, romantik poeziyanın Məhəmməd Hadi, realist poeziyanın isə Mirzə Ələkbər Sabir tərəfindən yaradıldığını və inkişaf dövrü keçirdiyini xatırladır. 1920-ci illərin sonu 1930-cu illərin əvvəllərindən başlayaraq milli ideologiya, islamçılıq, türkçülük ideologiyasına qarşı mübarizə aparıldığını xüsusi olaraq vurğulayır. Onu da nəzərə çatdırır ki, 1930-cu illərdən sonra yaranan Azərbaycan poeziyası, nəsri və dramaturigiyasında “yeni cəmiyyət ”quran xalqdan danışılır, “sovet gərçəyliyi” tərənnüm olunur. Bunun əksinə olaraq , ...30-50-ci illər azərbaycançılıq dünyagörüşünün formalaşması tarixində mühüm mərhələ olmuş, ədəbiyyat həmin dünyagörüşü çox fəal şəkildə təbliğ etmişdir. Əlbəttə, azərbaycançılıq təbliğatının əsasında Azərbaycanı türk dünyasından ayırmaq ideyası dururdu... [2, s.144]. Alimin fikirincə, 1950-ci illərdən etibarən Azərbaycan cəmiyyətində “yeni ideya axtarışlarının geniş yayılması” insanın mənəvi aləminə maraq göstərilməsi, “təsvirdə, təhkiyədə, dil-üslubda sərbəstliyə meydan verilməsi” 1950-ci illərin sonu, 1960-cı illərin əvvəllərində yaranan Azərbaycan ədəbiyyatını 1930-cu illərin ortalarından 1960-

cı illərin əvvəllərinə qədərki mərhələdən əsaslı şəkildə fərqləndirir. XX yüzil Azərbaycan ədəbiyyatı tarixinin üçüncü mərhələsində iki poeziya məktəbinin – Səməd Vurğun və Rəsul Rza məktəblərinin fəaliyyət göstərdiyinə diqqətimizi yönəldir. Xalq şairi Xəlil Rza Ulutürkün (1932-1994) milli və ümumbəşəri ideyaları çevrələyən poeziya yaradıcılığında Səməd Vurğun və Rəsul Rza ədəbi məktəblərinin ənənələrini davam və inkişaf etdirdiyini açıqlayır. N.Cəfərov 1980-ci illərin sonu, 1990-cı illərdən başlayaraq yaradılan Azərbaycan ədəbiyyatını isə "müstəqil bir xalqın ədəbiyyatı" adlandırmaqda da tamamilə haqlı görünür.

Müstəqillik dövrü Azərbaycan ədəbiyyatşünaslığının qarşısında duran başlıca problemlərdən biri də çoxəsrlik Azərbaycan ədəbiyyatı tarixinin dövrləşdirilmə prinsiplərinin və nəzəri konsepsiyasının işlənib hazırlanması ilə bağlı idi. Özü də bu prinsip və nəzəri konsepsiyalar sovet dövründə olduğu kimi, sovet ideologiyasının metodoloji meyarları əsasında deyil, müstəqillik dövrünün elmi və milli metodoloji tələbləri əsasında hazırlanmalıydı. Bu vəzifə Azərbaycan ədəbiyyatı tarixini elmi yönümdə, milli düşüncə işığında yaratmaq istəyən Azərbaycan ədəbiyyatşünas alimlərini yeni yaradıcılıq axtarışlarına səsləyir. Sovet dövrü "ədəbiyyat tarixləri"ndən fərqli, milli məfkurəyə söykənən bir "ədəbiyyat tarixi" yaratmaq aktual bir problem kimi qarşıda dayanır. Müstəqillik dövrü Azərbaycan ədəbi fikrinin elmi prinsiplərinin və dövrləşdirmə meyarlarının müəyyənləşdirilməsi istiqamətində görkəmli ədəbiyyatşünas alim, akademik İsa Həbibbəylinin apardığı tədqiqatlar xüsusilə ciddi maraq doğurur. İ.Həbibbəyli Azərbaycan ədəbiyyatı tarixinin dövrləşdirilməsi haqqında elmi konsepsiyanın yaradılmasının hansı zərurətdən doğduğuna aydınlıq gətirir. Alimin fikrincə, Azərbaycan ədəbiyyatı tarixinin "keçmiş sovet ideologiyası əsasında aparılmış dövrləşdirilməsi" ədəbi-tarixi proseslərin real mənzərəsini yaratmaq gücündən çox uzaqdır, "müstəqillik dövrünün prinsiplərinə, milli məfkurəyə" uyğun deyil. Digər tərəfdən, ayrı-ayrı müəlliflər və ya müəlliflər kollektivi tərəfindən yazılmış və nəşr edilmiş Azərbaycan ədəbiyyatı tarixlərinə dair akademik nəşrlərdə, dərslik və monoqrafik araşdırmalarda özünə yer alan dövrləşdirmə prosesində "keçmişdə müəyyən edilmiş mərhələlərdən uzaqlaşa bilməmək hallarının aşkar görünməsi", mərhələ təsnifatında pərakəndəliyə yol verilməsi, milli ədəbiyyat tariximizin dövrləşdirilməsinin "vahid sisteminin yaradılması zərurətinin meydana çıxması", dövrləşdirmə ilə əlaqədar "dünyada gedən ədəbi- tarixi proseslərin nəzərə alınması zərurəti müstəqillik dövründə milli ideologiya işığında yeni dövrləşdirmə konsepsiyasının yaradılmasını ədəbi-tarixi və elmi zərurətə çevirmişdir. Akademik İsa Həbibbəyli Azərbaycan ədəbiyyatı tarixinin yeni dövrləşdirmə konsepsiyası yaradılarkən "Azərbaycan xalqının milli maraqlarından və dövlətçilik meyarlarından "çıxış etməyi zəruri bir tələb kimi irəli sürmüş, ədəbi fikrin yenidən dövrləşdirilməsi zamanı aşağıdakı prinsiplərə əsaslanmağı faydalı hesab etmişdir.

1. Azərbaycançılıq məfkurəsi.
2. Sivilizasiya faktoru.
3. Ədəbi-tarixi prosesin reallıqları.
4. Azərbaycanda ədəbi cərəyanlar [4, s.96].

Alim Azərbaycan ədəbiyyatı tarixinin yeni dövrləşdirmə konsepsiyası yaradılarkən göstərilən nəzəri-metodoloji prinsiplərdən ayrı-ayrılıqda deyil, vahid bir sistem kimi faydalanmağı zəruri bir komponent kimi irəli sürür. Akademik İsa Həbibbəyli Azərbaycan ədəbiyyatı tarixinin dövrləşdirilməsi konsepsiyasını öncə layihə halında hazırlamış, 2015-ci ildə "Ədəbiyyat məcməsi"nin XXVI cildində nəşr etdirməklə elmi dövriyyəyə çıxarmışdır. "Azərbaycan ədəbiyyatı: dövrləşdirmə konsepsiyası və inkişaf mərhələləri (Bakı: "Elm", 2019) adlı sanballı monoqrafiyasında milli ədəbiyyatımızın tarixi inkişaf proseslərinin daxili qanunauyğunluqlarını nəzərə alaraq, Azərbaycan ədəbiyyatı tarixinin yeni dövrləşdirmə modelini yaratmışdır. O, ən qədim dövrlərdən VII əsrə qədərki mərhələni "Qədim dövr Azərbaycan ədəbiyyatı, Etnosdan eposadək" adlandırmış, VII-X əsrləri "Azərbaycan yazılı ədəbiyyatının ortaq başlanğıc dövrü", XI-XII əsrləri "İntibah dövrü Azərbaycan ədəbiyyatı", "XIII-XVI əsrləri" Orta əsrlər Azərbaycan ədəbiyyatı, XVII-XVIII əsrləri "Azərbaycan ədəbiyyatında erkən realizm dövrü", XIX əsri "Azərbaycan ədəbiyyatında maarifçi realizm dövrü",

XIX əsrin doxsanıncı illərindən Azərbaycanda sovet hakimiyyətinədək olan zaman vahidini "Azərbaycan ədəbiyyatında tənqidi realizm və romantizm epoxası" biçimində səciyyələndirir. Monoqrafiya müəllifi XX yüzil Azərbaycan ədəbiyyatı tarixini üç mərhələyə ayırır:

1. Azərbaycan ədəbiyyatında sosialist realizmi dövrü (1920-1960-cı illər).
2. Milli-mənəvi özünüdərk və istiqlal ədəbiyyatı mərhələsi. Modernizm (1960-1980-ci illər).
3. Müstəqillik dövrü çoxmetodlu Azərbaycan ədəbiyyatı (1991-ci ildən ) [4, s.114].

Monoqrafiyada çoxəsrlik Azərbaycan ədəbiyyatı tarixinin hər bir dövrünün elmi mənzərəsi yaradılmış, ən mühüm ədəbi-tarixi hadisələr haqqında məlumatlar verilmiş, ədəbi şəxsiyyətlərin bədii yaradıcılığı təhlil süzgəzindən keçirilmişdir. Tədqiqat mövzumuzla əlaqədar xüsusi olaraq vurğulamaq istərdik ki, İsa Həbibbəyli "Azərbaycan ədəbiyyatında sosialist realizmi dövrü" adlandırdığı 1920-1960-cı illər dövrünün 1920-1930-cu illərində baş verən sosial-siyasi və ədəbi-mədəni prosesləri obyektiv elmi meyarlarla dəyərləndirmiş, sosialist realizmi metodunun sinfilik və partiyalılıq pirinsiplərindən qaynaqlandığını diqqətə çatdırmışdır. Belə bir müddəanı da əsaslandırmışdır ki, "XX əsrin otuzuncu illərinədək hələ də yaşamaqda olan milli təmayülçülük ölkədə proletar hegemoniyasının qüvvətləndirilməsi ilə aradan qaldırılmışdır" [4, s.311]. Bununla da bədii yaradıcılıqda sosialist ideyalarının tərənnümünə geniş imkanlar açılmışdır. Akademik İsa Həbibbəyli "Azərbaycan ədəbiyyatı: dövrləşdirmə konsepsiyası və inkişafı mərhələləri" monoqrafiyasında 1920-1950-ci illəri çevrələyən Azərbaycan ədəbiyyatının sosialist realizmi dövrünün aşağıdakı bölgüdə göstərilən mərhələ təsnifatını da aydınlaşdırmağı məqsədəuyğun sayır:

1. Azərbaycan sovet ədəbiyyatında sosialist realizmi yaradıcılıq metodunun formalaşma dövrü (1920-1932-ci illər).
2. Azərbaycanda sosialist realizmi ədəbiyyatının təşəkkülü və inkişaf mərhələsi (1932-1941-ci illər).
3. Sosialist realizmi ədəbiyyatı Böyük Vətən müharibəsi dövründə (1941-1945-ci illər).
4. Sosializm cəmiyyətinin inkişafı dövründə sosialist realizmi(1945-1953-cü illər).
5. Xruşşov mülayimləşməsi mərhələsində sosialist realizminə münasibət (1953-1964-cü illər).
6. Azərbaycanda sosialist realizmi ədəbiyyatının tənəzzül dövrü (1960-cı ildən sonra) [4, s.324].

Tədqiqatçı alimin maraq doğuran və razılıqla qarşılanan bir fikri də bundan ibarətdir ki, yeganə yaradıcılıq metodu olan, sinfilik və partiyalılıq pirinsipinə əsaslanan sosialist realizmi 1920-1950-ci illər Azərbaycan ədəbiyyatında müxtəlif janrlarda "formaca milli, məzmunca sosialist"olan bədii əsərlərin yaranmasında həlledici amilə çevrilmişdir. "Azərbaycan sovet ədəbiyyatı" istilahı həm sovet ideologiyasını, həm də milli təmayülü əhatə edən bədii əsərləri özündə birləşdir. İsa Həbibbəyli müasirlik mövqeyindən yanaşaraq, çox doğru olaraq sovet dövrü Azərbaycan ədəbiyyatının inkişaf dinamikasının iki istiqamətdə irəlilədiyini nəzərə çatdırmış, "Azərbaycan sovet ədəbiyyatı" istilahının "Sovet ideologiyası əsasında yaranmış Azərbaycan ədəbiyyatını", "Sovet dövrü Azərbaycan ədəbiyyatı" istilahının isə "Sovet dövründə yaranan, lakin Azərbaycan gerçəkliyini əks etdirməyə üstünlük verən Azərbaycan ədəbiyyatı"nı xatırlatmağını əsaslandırmışdır [4, s.333].

Göründüyü kimi, akademik İsa Həbibbəyli "Azərbaycan ədəbiyyatı: dövrləşdirmə konsepsiyası və inkişaf mərhələləri" monoqrafiyasında çoxəsrlik Azərbaycan ədəbiyyatı tarixinin dövrləşdirmə konsepsiyasının elmi əsaslarını yaratmış, müasir elmi təfəkkür işığında yeni milli ədəbiyyat tariximizin yaradılması yoluna yaşıl işıq yandırmış, Azərbaycan ədəbiyyatşünaslıq elminə layiqli töhfələr vermişdir.

Professor Bədirxan Əhmədov Azərbaycan ədəbiyyatı tarixinin dövrləşdirilmə konsepsiyasını elmi əsaslarla yaratmağı qarşısına məqsəd qoymasa da, bu problemə münasibət bildirmiş və üçcildlik "XX əsr Azərbaycan ədəbiyyatı tarixi" dərsliyinin 2-ci cildində (2010) haqlı olaraq yazmışdır ki, "Ən mühüm məsələlərdən biri isə ədəbiyyat tarixinin dövrləşdirilməsi və bu mərhələlərin sərhədlərinin müəyyənləşdirilməsidir" [3, s.11]. Alim onu da xatırladır ki, sovet dövründə yazılmış ədəbiyyat dərsliklərində ədəbiyyat tarixinin mərhələ bölgüsü 1917-1920-ci illər ədəbiyyatı, 1920-1930-cu illər ədəbiyyatı və s. formasında aparılır. Bu da siyasi-ideoloji mövqedən irəli gəlir. B.Əhmədov hər

bir mərhələ təsnifatını şərti sayır, ədəbiyyat tarixini onilliklərə ayırıb dəyərləndirməyin əleyhinə çıxır. 1920-ci illəri “Proletar hegemoniyası dövrü”, 1930-cu illəri “Siyasi-ictimai repressiyalar dövrü”, 1940-1950-ci illəri isə “Sosializmin təşəkkülü və yeni meyillərin təzahürü” dövrü adlandırır. 1920-1950-ci illərdə baş verən sosial-siyasi hadisələri, ədəbi prosesləri dəyərləndirir. Bədirxan Əhmədov “XX yüzil Azərbaycan ədəbiyyatı” (2015) monoqrafiyasında ədəbi fikrin inkişafını xronoloji prinsip əsasında təhlil etməklə yanaşı, 1920-1950-ci illər Azərbaycan ədəbiyyatını “Proletar” ədəbiyyatı, yaxud ədəbiyyatın proletar mərhələsi”, “İctimai-siyasi represiyyalar dövrü və “sosializmin təşəkkülü və yeni meyillərin təzahürü” mərhələlərinə ayırır. Hər mərhələnin səciyyəvi xüsusiyyətlərini aydınlaşdırır.

Ali məktəblər üçün yazılan və 2007-ci ildə nəşr olunan “Müasir Azərbaycan ədəbiyyatı” dərsliyində Azərbaycan ədəbi fikrinin dövrləşdirmə meyarlarından danışılmasa da, dərslik yazılarkən müəlliflərin xronoloji ardıcıllığı gözlədiklərinin və bu yönümdə mərhələ bölgüsü apardıqlarının şahidi oluruq.

1. Milli-mədəni dirçəliş və Azərbaycan Xalq Cümhuriyyəti dövründə ədəbiyyat (1918-1920).
2. Sovet dövrü ədəbiyyatı. Siyasi-ictimai ziddiyyətlər və münaqişələr dövründə ədəbiyyat (1920-1940).
3. İkinci Dünya müharibəsi dövründə ədəbiyyat (1941-1945).
4. Müharibədən sonrakı dövrdə ədəbiyyat (1946-1960) [7, s.500-501].

Dərslik müəlliflərinin yuxarıda göstərilən mərhələ bölgüsü ilə tamamilə razılaşmaq çətindir. Bu bir sıra səbəblərlə bağlıdır. Bu səbəblərdən biri odur ki, “Müasir Azərbaycan ədəbiyyatı” adlanan dərslik 1920-1991-ci illəri əhatə edən “Azərbaycan sovet ədəbiyyatı” mərhələsi ilə başlanmalı olduğu halda,1918-1920-ci illərdə fəaliyyət göstərən Azərbaycan Xalq Cümhuriyyəti mərhələsindən başlanır. Unutmaq olmaz ki, Azərbaycan Xalq Cümhuriyyəti dövründə Azərbaycan ədəbi-nəzəri düşüncəsində milli ideologiya hakim mövqedə dayanırdısa, Sovet dövrü Azərbaycan ədəbiyyatında milli ideologiyaya zidd olan kommunist ideologiyası, sovet düşüncə məfkurəsi hegemonluq edirdi. Digər tərəfdən, 1941-1945-ci illər “İkinci Dünya müharibəsi” dövrü deyil, “Böyük Vətən müharibəsi” dövrü adlandırılmalı idi. Göstərilən iradlara baxmayaraq, “Müasir Azərbaycan ədəbiyyatı” (2007) dərsliyinin “Mündəricat”ında göstərilən dövrləşdirmə bölgüsü xeyli dərəcədə önəmli görünür. Gültəkin Əliyeva isə “Azərbaycan ədəbiyyatı” (2020) adlı dərs vəsaitində Azərbaycan ədəbiyyatı tarixini “Qədim dövr”, “Orta əsrlər”, “Yeni dövr” mərhələlərinə ayırır. 1900-1920-ci illər ədəbiyyatını “XX əsr Azərbaycan ədəbiyyatı” dövrü, 1920-1950-ci illəri “Azərbaycan ədəbiyyatının sovet dövrü” adlandırır. Azərbaycan ədəbiyyatının 60-80-ci illər mərhələsini yeni bölmədə verir. Tədqiqatçı nəzərə almalı idi ki, XX əsr Azərbaycan ədəbiyyatı, təkcə 1900-1920-ci illəri deyil, bütövlükdə 1900-1990-cı illəri əhatə edir. Azərbaycan ədəbiyyatının sovet dövrü isə 1920-ci ildən başlanır, 1990-cı ildə tamamlanır. Deməli, XX əsr Azərbaycan ədəbiyyatı tarixi bütöv şəkildə öyrənilməli, tədqiq olunmalıdır. Nəzərə almaq lazımdır ki, müstəqillik illərində XX əsrin 20-30-cu illər mərhələsinin dövrləşdirmə konsepsiyasına münasibət bildirən ədəbiyyatşünas alimlər və tədqiqçilər sırasında professor Təyyar Salamoğlunun öz mövqeyi, öz elmi baxışları vardır. Alimin gəldiyi elmi qənaət bundan ibarətdir ki, “Geniş götürəndə 20-30-cu illər ədəbi fikir tariximizdə bütöv bir mərhələdir” [10, s.16]. Ədəbi fikir tariximizin 20-30-cu illər mərhələsinə “vulqar-sosioloji tənqid” mərhələsi kimi dəyərləndirmək konteksində elmi qiymət verməyin mümkünsüzlüyü qənaətinə gələn T.Salamoğlu bu dövrün mərhələ bölgüsünə də aydınlıq gətirir. “Dörd il yarım Azərbaycanda”: Ayrılan yollar... Birləşən mövqelər...” məqaləsində yeni dövrləşdirmə konsepsiyası irəli sürür: Məsələn, ədəbi proseslə ictimai-siyasi proseslər arasındakı əlaqə 20-ci illərin sonlarına qədərki tarixdə (daha dəqiq desək,1928-ci ilə qədər ), 1928-1934-cü illər arasında və 1934-cü ildən sonrakı illərdə tamam fərqli məcralarda davam edib. Birinci zaman kəsiyində ədəbi-mədəni ,elmi proseslər daha çox milli təmayüldə,ikinci zaman kəsiyində proletkultçu düşüncə müstəvisində, 1934-cü ildən sonrakı, bütövlükdə, sovet ədəbiyyatı uğrunda mübarizə konteksində cərəyan edib [10, s.17]. Ədəbi fikir tariximi-

zin 1920-1930-cu illər mərhələsinin dövrləşdirmə meyarlarına tam aydınlıq gətirən məqalə müəllifi onu da xüsusi olaraq vurğulayır ki, "birinci zaman kəsiyində" ədəbi-elmi sferada milli və ümumtürk düşüncəsinə yasaq qoyulmayıb, "ikinci zaman kəsiyində" hər cür milliliyə, ümumtürk düşüncəsinə müharibə elan edilib, "üçüncü zaman kəsiyində isə" millilik sırf ideoloji kontekstdə dəyərləndirilib [10, s.17]. Professor Təyyar Salamoğlunun ədəbi fikrimizin 1920-1930-cu illər mərhələsini dövrləşdirmə konsepsiyası bu gün də öz aktuallığını saxlayır.

Elmi-tədqiqat predmetimizlə bağlı nəzərə çatdırmaq istəyirik ki, ədəbi fikir tariximizin 1920-1930-cu illər mərhələsi sovet siyasi rejimi müstəvisində araşdırılarkən sovet ideologiyasının prinsipləri əsas götürülmüş, xronoloji dinamika gözlənilsə də, dövrləşdirmə meyarlarında yanlışlıqlara yol verilmişdir. "Üç amil", formasiyalar nəzəriyyələri ədəbi fikrin dövrləşdirilməsinə əngəllər törətmişdir. "Ədəbiyyat tarix"lərimizin öz başlanğıcını 1917-ci ildən Rusiyada çarizm üzərində qələbə çalan Böyük Oktyabr sosialist inqilabının qələbəsindən götürməsi tezisinin dövriyyəyə buraxılması da siyasi ideologiyaya istinaddan qaynaqlanmışdır. Ədəbi fikir tariximizin 1920-30-cu illər dövrünün bəzən 1917-1920, 1917-1930, 1920-1930, bəzən 1930-1940, 1920-1932, bəzən də 1932-1941 və 1941-1945 mərhələlərinə ayrılması, ictimai-siyasi və ədəbi-mədəni proseslərin bu aspektdə təhlil olunması dolaşıqlığa, qeyri-dəqiqliyə şərait yaratmış, siyasi metodoloji yanaşma vahid dövrləşdirmə konsepsiyasının formalaşmasına imkan verməmişdir. Sovet dövrünün dövrləşdirmə meyarlarından tamamilə fərqli olaraq, XX əsrin 20-30-cu illər mərhələsinin milli metodoloji yanaşmalar müstəvisində, estetik prinsiplər əsasında mərhələ təsnifatı ədəbiyyatşünas alimlər tərəfindən aparılmışdır. Müstəqillik illərində də ədəbiyyat tariximizin dövrləşdirilməsinin öncə elmi prinsipləri hazırlanmış, bu əsasda mərhələ təsnifi xronoloji ardıcıllıq, tarixilik prinsipi gözlənilməklə həyata keçirilmişdir. Müstəqillik dövrü Azərbaycan ədəbiyyatı tarixinin dövrləşdirmə problemini araşdıran Yaşar Qarayev, Nizami Cəfərov, İsa Həbibbəyli, Bədirxan Əhmədov kimi görkəmli ədəbiyyatşünas alimlər ədəbi fikrimizin 1920-1930-cu illər dövrünü daha çox vahid bir anlamda, 1920-1950-ci illər mərhələsinin tərkib hissəsi şəklində təhlilə çevirmiş, dəyərləndirmişlər. Eyni zamanda, 1920-1950-ci illər mərhələsinin sərhədlərini bəzən 1920-1960, bəzən 1920-1932 və 1932-1941, bəzən 1930-1950, bəzən də 1941-1945-ci illər müstəvisində müəyyənlşdirmişlər. "XX əsrin 20-30-cu illəri Azərbaycan ədəbi fikrinin müstəqillik illərində vahid dövrləşdirmə sistemi yaradılmış və elmi baxımdan əsaslandırılmışdır" tezisini bu gün birmənalı şəkildə, qeyd-şərtsiz qəbul etmək çətindir.

## Nəticə / *Conclusion*

Ədəbi-nəzəri və estetik fikrimizin sovet dövrünün 1920-1930-cu illər mərhələsinin sərhədlərinin dəqiq müəyyənləşdirilməsi ciddi elmi tədqiqata möhtacdır. Bizim fikrimizcə, Azərbaycan ədəbiyyatı tarixinin 1920-1930-cu illər mərhələsini üç bölümə ayırmaq və aşağıdakı şəkildə dövrləşdirmək mümkündür:

1. Birinci mərhələ 1920-1927-ci illəri əhatə edir. Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin "Bədii ədəbiyyat sahəsində partiyanın siyasəti haqqında" 1925-ci il 18 iyun tarixli qətnaməsini nəzərə alsaq, 1920-1927-ci illər mərhələsini iki yarımmərhələyə: a) 1920-1925 və b) 1925-1927-ci illər yarımmərhələlərinə ayırmaq məqbuldur. Bu mərhələdə millilik və türkçülük təmayülləri aparıcı mövqeydə dayanıb.

2. İkinci mərhələ 1928-1934-cü illəri çevrələyir, Azərbaycan Proletar Yazıçıları Cəmiyyətinin ilk təsis qurultayının (1928, 13 yanvar) keçirilməsi ilə başlanır və Azərbaycan Sovet Yazıçılarının birinci qurultayı (1934, 13-14 iyun) ilə tamamlanır. Bu mərhələdə "proletkultçuluq" məfkurəsi son dərəcə qüvvətlənir, yazıçılar "sağ" və "sol" təmayüllərə bölünür, bu təmayüllər arasında sinfi və ideoloji mübarizə daha da güclənir.

3. Üçüncü mərhələ 1935-1945-ci illər zaman kəsiyini özündə birləşdirir. "Sovet ədəbiyyatı uğrunda mübarizə" , "repressiya" və "Böyük Vətən müharibəsi" yarımmərhələlərinə ayrılır. XX əs-

rin 20-30-cu illərində sosial-siyasi, ədəbi-mədəni və nəzəri-estetik proseslər yuxarıda göstərilən mərhələlər daxilində cərəyan edir. Sovet dövrü Azərbaycan ədəbiyyatının ideya-estetik özəlliklərini və inkişaf dinamikasını da məhz bu mərhələlər şərtləndirir.

**Ədəbiyyat / *References***


1. Alışanlı, Ş. Müasir humanitar təfəkkür və Azərbaycan ədəbiyyatşünaslığı. – Bakı: Elm, 2011.
2. Cəfərov, N. Seçilmiş əsərləri. 5 cilddə, II cild. – Bakı, Elm, 2007.
3. Əhmədov, B. XX əsr Azərbaycan ədəbiyyatı tarixi. 3 cilddə, II cild. – Bakı, 2010.
4. Həbibbəyli, İ. Azərbaycan ədəbiyyatı: dövrləşdirmə konsepsiyası və inkişaf mərhələləri. – Bakı: Elm, 2019.
5. Qarayev, Y. Tarix:yaxından və uzaqdan. – Bakı: Sabah, 1996.
6. Qəhrəmanlı, N. Milli ədəbiyyat tarixçiliyi: Genezis, inkişaf, dövrləşdirmə problemləri. – Bakı: Qartal, 1997.
7. Müasir Azərbaycan ədəbiyyatı. 2 cilddə, I cild. – Bakı, 2007.
8. Nəbiyev, B., Salmanov, Ş. Əsrin ədəbiyyatı // XX əsr Azərbaycan ədəbiyyatı məsələləri. I kitab. – Bakı: Elm, 2006.
9. Salamoğlu, T. Azərbaycan ədəbi tənqid tarixinə dair portret-oçerklər. – Bakı, 2013.
10. Salamoğlu, T. "Dörd il yarım Azərbaycanda": Ayrılan yollar... Birləşən mövqelər // "Ədəbiyyat qəzeti", 2022, 24 dekabr, № 50-51.


## Новые концептуальные научные взгляды на периодизацию этапа азербайджанской литературы 1920-1930 годов в азербайджанской литературно-теоретической мысли периода независимости


**Ядулла Дадашли**
Доктор философии по филологии, доцент
Джалилабадский филиал Азербайджанского Государственного Педагогического Университета
E-mail: dadashliyadulla@mail.ru



**Резюме.** Период независимости как один из актуальных вопросов, стоящих перед азербайджанским литературоведением, связан с периодизацией нашей литературной истории. Правильная периодизация чрезвычайно важна в создании нашей литературной истории. Т.Саламоглу и другие провели исследования по периодизации истории азербайджанской литературы. В статье исследуются и оцениваются с научной точки зрения исследования, проводимые учеными по периодизации истории нашей литературы. В статье осуществляется периодизация этапа нашей литературно-теоретической мысли 1920-30-х годов. Обосновывается, что ведущие позиции занимают тенденции национализма и тюркизма на первом этапе, пролетаризма на 2-м этапе и борьбы за советскую литературу на 3-м этапе.


**Ключевые слова:** история литературы, периодизация, варианты и теории периодизации, исследования, связанные с периодизацией